

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 46 (22.957)

*8 mart 2018-ci il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## *Rəsmi xronika*

Martın 7-də Dövlət Statistika Komitəsinin Bakı Şəhər Statistika İdarəsinin yeni inzibati binasının açılışı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılışda iştirak edib.

Dövlətimizin başçısı binanın rəmzi açılışını bildirən lenti kəsib.

Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov görülən işlər və binada yaradılan şərait barədə Prezident İlham Əliyevə məlumat verib.

Bakı Şəhər Statistika İdarəsinin yeni inzibati binası Azərbaycan Prezidentinin 2012-ci ildə imzaladığı Sərəncamla təsdiq edilən “2013-2017-ci illərdə Azərbaycan Respublikasında rəsmi statistikanın inkişafı Dövlət Proqramı”na əsasən inşa edilib.

Prezident İlham Əliyevə son illər rəsmi statistikanın inkişafı sahəsində görülən işlər, məlumatların keyfiyyətinə nəzarət cədvəllərinin və qiymət statistikası üzrə məlumatların hazırlanması prosesi barədə də məlumat verilib.

Sonra dövlətimizin başçısı binada yaradılan şəraitlə tanış olub.

Məlumat verilib ki, 166 nəfərin çalışacağı bina altı mərtəbədən ibarətdir. Burada işçilərin rahatlığı üçün hər cür şərait yaradılıb.



## Naxçıvanda 8 Mart Beynəlxalq Qadınlar Günü münasibətilə tədbir keçirilmişdir






Martın 7-də Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında 8 Mart Beynəlxalq Qadınlar Günü münasibətilə tədbir keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov tədbir iştirakçılarını və muxtar respublika qadınlarını 8 Mart Beynəlxalq Qadınlar Günü münasibətilə təbrik edərək demişdir: Hər bir cəmiyyətin mədəni inkişaf səviyyəsi və yüksəlişi, qabaqcıl dəyərlərə malik olması anaya, qadına olan münasibətlə sıx bağlıdır. Azərbaycan cəmiyyətində ana və qadın adının müqəddəs tutulması səbəbsiz deyil. Əsas səbəblərindən biri qədim türk adət-ənənələrinin yaşadılmasıdırsa, ikinci səbəbi isə müqəddəs dinimiz olan İslam dinidir. Bu dinin ehkamları da qadına, qıza və anaya yüksək ehtiram ifadə etmiş, Qurani-Kərimdə qadın hüquqlarına hörmətlə yanaşılması mənəvi öhdəlik kimi qoyulmuşdur.

Qeyd olunanların nəticəsidir ki, Azərbaycanda qadın hüquqları dünyanın bir çox ölkələrindən əvvəl dövlət siyasətinin əsas istiqamətlərindən birinə çevrilmiş, 1918-ci ildə yaranan Azərbaycan Xalq Cümhuriyyəti hökuməti müsəlman Şərqində ilk dəfə olaraq qadına seçmək və seçilmək hüququ vermişdir. Müqayisə üçün deyə bilərik ki, bundan 2 il sonra Amerika Birləşmiş Ştatlarında, 26 il sonra Fransada, 53 il sonra isə İsveçrədə qadınlar seçkilərdə iştirak hüququ ala bilmişlər. Sovetlər Birliyi dövründə də Azərbaycan qadınlarının ictimai həyatda fəallığı artmışdır. Bu dövrdə baş verən ictimai-siyasi proseslər, iqtisadiyyatın sürətli inkişafı qadınların maariflənməsinə və ictimai həyata qoşulmasına səbəb olmuşdur. Ötən əsrin 70-ci illərində ümummilli lider Heydər Əliyev Azərbaycanın rəhbəri seçiləndən sonra qadınların ictimai həyatda yeri və mövqeyi daha da möhkəmlənmişdir. Qadınların təhsil səviyyəsinin yüksəldilməsi, müxtəlif peşələrə yiyələnərək öz istedad və bacarıqlarını göstərə bilmələri həmin dövrün başlıca nailiyyətidir. Bu dövrdə qadınlar Azərbaycanın və Sovetlər Birliyinin ali hakimiyyət orqanlarına deputat seçilir, yüksək vəzifələrə təyin olunurdular. Ümummilli liderimiz



dövlət qadın siyasətində yaranmış müsbət meyilləri əsaslandıraraq 1974-cü ildə keçirilmiş müşavirədə deyirdi ki, həyat özü, bizim təcrübəmiz qadınların başçılıq etdikləri müəssisələrin bir qayda olaraq qabaqcıllar sırasında getdiyini sübut edir. Bunlarda səliqə-sahman daha çox olur, əmək intizamı pozulmur.

Ali Məclisin Sədri demişdir: Ümummilli liderimizin ali hakimiyyətə ikinci qayıdışından sonra qadın problemlərinin həllində də əsaslı dönüşə nail olundu. Dövlət qadın siyasətini tənzimləyən qanunvericilik bazası yaradıldı. Ölkəmiz qadın hüquqlarının qorunması ilə bağlı konvensiyalara qoşuldu. Bu gün Azərbaycan qadını ictimai-siyasi həyatda, elm, təhsil, mədəniyyət, dövlət qulluğu və ordu quruculuğunda, hüquq-mühafizə, məhkəmə və digər orqanlarda çalışır. Bu, Azərbaycan qadınının seçki hüququ qazanmasından ötən yüz ildə əldə etdiyi ən böyük nailiyyətidir!

Qeyd olunmuşdur ki, muxtar respublika qadınları da tarixin bütün dövrlərində öz fədakarlıqları və vətənpərvərlikləri ilə seçiliblər. İkinci Dünya Müharibəsində Naxçıvandan 127 könüllü qadın iştirak etmiş, onların hamısı döyüş orden və medalları ilə təltif olunmuşlar. Müharibə dövründə arxa cəbhədəki xidmətlərinə görə 1736 qadın, müharibədən sonrakı bərpa işlərində fərqləndiyinə görə isə 512 qadın yüksək orden və medallarla təltif olunmuş, qadınlarımızdan 11 nəfəri Sosialist Əməyi Qəhrəmanı kimi yüksək ada layiq görülmüşdür. Muxtar respublikanın təşkil olunduğu 1924-cü illə müqayisədə bu gün qadınların sayı 5 dəfə artaraq 226 min 847 nəfərə çatmışdır ki, bu da muxtar respublika əhalisinin 50,1 faizini təşkil edir. Muxtar respublikada dövlət qulluğunda işləyənlərin 513 nəfəri, yaxud 20 faizi, təhsil sahəsində işləyənlərin 10 min nəfəri, yaxud 66 faizi, səhiyyə və sosial təminat sahəsində işləyənlərin 4 min 491 nəfəri, yaxud 76 faizi, mədəniyyət sahəsində işləyənlərin 2 min 692 nəfəri, yaxud 68 faizi, özəl sektorda işləyənlərin 11 min 323 nəfəri, yaxud 20 faizi qadınlardır. Ümumiyyətlə, muxtar respublikada qadınların 32 min 543 nəfəri işləyir ki, bu da işləyən əhalinin 33 faizini təşkil edir.

Ali Məclisin Sədri demişdir ki, muxtar respublika qadınları təhsil sahəsində də fərqlənirlər. Bunun əyani ifadəsi özünü ali və orta ixtisas məktəblərinə qəbulda qızların fəallığının artmasında göstərir. 2017-ci ildə ali təhsil müəssisələrinə qəbul imtahanlarında yüksək bal toplayanların 174 nəfərini, yaxud 60 faizini qızlar təşkil etmişdir. Hazırda muxtar respublikada elmlər doktorlarının 2-si, fəlsəfə doktorlarının isə 88-i qadınlardır. Muxtar respublika qadınlarından 23 min 175-i Yeni Azərbaycan Partiyasının üzvüdür ki, onların da 111-i ərazi ilk partiya təşkilatının sədridir. Bütün bunlar onu deməyə əsas verir ki, artıq muxtar respublika qadınları cəmiyyət həyatının bütün sahələrində uğurla təmsil olunurlar. Ona görə də muxtar respublika qadınlarının əməyi dövlətimiz tərəfindən yüksək qiymətləndirilmiş, ölkəmiz müstəqillik qazandıqdan ötən müddət ərzində qadınların 147-si Azərbaycan Respublikasının, 133-ü isə Naxçıvan Muxtar Respublikasının fəxri adlarına layiq görülmüş, 105 qadın orden, medal və nişanlarla təltif olunmuşdur.

Ali Məclisin Sədri bu gün muxtar respublikamızın inkişafında əməyi olan bütün qadınlara muxtar respublikanın Ali Məclisi və hökuməti adından təşəkkürünü bildirmiş, bir daha qadınları 8 Mart Beynəlxalq Qadınlar Günü münasibətilə təbrik etmiş, çıxışını ölkə Prezidenti cənab İlham Əliyevin fikirləri ilə tamamlamışdır: ***“1918-ci ildə seçib-seçilmək hüququ qazanan Azərbaycan qadını qısa müddət ərzində bir neçə əsrə bərabər inkişaf yolu keçmişdir. Ümidvaram ki, qadınlarımız gələcək nəsillərin milli-mənəvi irsə, adət-ənənələrimizə hörmət ruhunda tərbiyəsində var qüvvələrini sərf edəcək, daim yeniləşən ölkəmizin daha da çiçəklənməsinə layiqincə xidmət göstərəcəklər”.***

Sonra Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının təltiflərinin təqdimatı olmuşdur.

Qeyd olunmuşdur ki, Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 1 mart tarixli Sərəncamları ilə Azərbaycan Respublikasının ictimai həyatında, təhsil, səhiyyə və mədəniyyət sahələrində səmərəli fəaliyyətlərinə görə,

*Ardı 2-ci səhifədə*

8 Mart Beynəlxalq Qadınlar Günü münasibətilə muxtar respublikadan olan 8 qadın “Tərəqqi” medalı ilə təltif olunmuş, 1 qadın isə Azərbaycan Respublikasının “Əməkdar həkimi” fəxri adına layiq görülmüşdür. Həmçinin Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 7 mart tarixli Sərəncamı ilə muxtar respublikada səmərəli fəaliyyətlərinə görə 1 qadın Naxçıvan Muxtar Respublikasının “Əməkdar müəllimi”, 1 qadın Naxçıvan Muxtar Respublikasının “Əməkdar həkimi”, 1 qadın Naxçıvan Muxtar Respublikasının “Əməkdar mədəniyyət işçisi” və 2 qadın Naxçıvan Muxtar Respublikasının “Əməkdar tibb işçisi” fəxri adlarına layiq görülmüş, 5 qadın isə Naxçıvan Muxtar Respublikasının “Rəşadətli əməyə görə” nişanı ilə təltif olunmuşdur.

Ali Məclisin Sədri təltiflərin vəsiqə və döş nişanlarını təqdim etmişdir.

Təltif olunanlardan Nina Abdullayeva, Kəmalə Əliyeva, Çiçək Əlizadə, Aləmzər İbrahimova, Mahizər Orucova, Xırda Ağayeva, Siyatel Cəfərova və Rəna Fətullayeva əməklərinə verilən yüksək qiymətə görə minnətdarlıq etmiş, bundan sonra da muxtar respublikanın inkişafına töhfə verəcəklərini bildirmişlər.

Tədbirin bədii hissəsində Naxçıvan şəhər 11 nömrəli uşaq bağçasının uşaqlarının ifasında kompozisiya təqdim olunmuş, Naxçıvan Dövlət Filarmoniyasının kollektivi konsert proqramı ilə çıxış etmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

*8 Mart Beynəlxalq Qadınlar Günüdür*

## Muxtar respublika qadınları hərtərəfli qayğı ilə əhatə olunub

***1910-cu ildə Danimarkanın paytaxtı Kopenhagendə keçirilən beynəlxalq konfransda martın 8-i Beynəlxalq Qadınlar Günü kimi təsis edilmişdir. Bu gün dünyanın bir sıra ölkələrində, o cümlədən Azərbaycanda bayram kimi qeyd olunur.***

Tariximizin və mədəniyyətimizin xəzinəsinə nadir incilər bəxş etmiş, xalqımızın mənəvi dəyərlərinin formalaşmasında və inkişafında böyük rolu olmuş qadınlarımız öz zəkası, müdrikliyi, sədaqəti, qəhrəmanlığı, yüksək analıq keyfiyyəti ilə hər zaman xalqımızın adını uca tutmuşdur. Azərbaycanda qadına – anaya daim böyük ehtiram və hörmət bəslənilmiş, ana həmişə müqəddəs olmuş, namus, qeyrət rəmzi sayılmışdır. Azərbaycan qadınları tarixin müxtəlif dövrlərində gözəl ana olmaqla yanaşı, həm də ictimai-mədəni həyatda yaxından iştirak etmiş, dövlət idarəçiliyində öz sözlərini demiş və adlarını tariximizə qızıl hərflərlə yazmışlar.

Azərbaycan Xalq Cümhuriyyəti Şərqdə qadınlara seçib-seçilmək hüququ verən ilk ölkə kimi tarixə düşüb. Azərbaycan qadınlarının dünyanın bir çox ölkələrinin qadınlarından əvvəl seçki hüququ əldə etməsi də, mədəniyyətin, incəsənətin və elmin müxtəlif sahələrində ilk addımlarını atması da Azərbaycan qadınının mədəni səviyyəsinin və intellektual potensialının təzahürüdür.

Ölkəmizdə dövlət qadın siyasətinin əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuşdur. Ötən əsrin 70-ci illərindən başlayaraq qadınlarımızın cəmiyyətdə rolu və fəallığı artmağa başlamış, qadınların ictimai-mədəni həyatda yeri daha da möhkəmlənmişdir. 1993-cü ildə ulu öndər Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışından sonra dövlət qadın siyasəti daha da gücləndirilmiş, qadının cəmiyyətdəki fəallığının artırılması üçün mühüm addımlar atılmış və qadın hərəkatına dövlət tərəfindən qayğı güclənmişdir. Bunun nəticəsidir ki, Azərbaycan qadını ictimai-siyasi, iqtisadi, mədəni həyatın fəal iştirakçısına çevrilmiş və bütün sahələrdə kişilərlə bərabər hüquqlara malik olmuşdur.

1995-ci il noyabrın 12-də qəbul edilən Azərbaycan Respublikasının Konstitusiyasında qadın hüquqları da öz əksini tapmış, dövlət quruculuğu prosesində onların iştirakı təmin edilmişdir. Ulu öndərimizin fərman və sərəncamları ilə ölkəmiz “Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında”, “Qadınların siyasi hüquqları haqqında”, “Nikaha daxil olmağa razılıq, minimal nikah yaşı və nikahların qeydə alınması haqqında” beynəlxalq konvensiyalara qoşulmuşdur. Ümummilli liderin 1998-ci il 14 yanvar tarixli Fərmanı ilə Azərbaycan Respublikası Qadın Problemləri üzrə Dövlət Komitəsinin yaradılması, Azərbaycan Qadınlarının Birinci Qurultayının keçirilməsi qadınların hüquqlarının qorunmasına, ölkəmizin sosial və siyasi həyatında onların iştirakının artırılmasına, xüsusilə dövlət idarəçiliyi sistemində lazımi səviyyədə təmsil olunmasına yeni mərhələ açmış, qadın problemləri ilə bağlı təxirəsalınmaz konkret tədbirlərin həyata keçirilməsinə, lazımi dövlət proqramlarının hazırlanmasına geniş imkanlar yaratmışdır.

Respublikamızda dövlət qadın siyasəti, bu istiqamətdə ulu öndər Heydər Əliyevin əsasını qoyduğu siyasi xətt ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən layiqincə həyata keçirilir. Dövlət başçısı qadınların cəmiyyətdəki roluna və yerinə, onların dövlət idarəçiliyində təmsil olunmalarına, irəli çəkilmələrinə xüsusi diqqət yetirir.

Prezident İlham Əliyevin hər il 8 Mart – Beynəlxalq Qadınlar Günü münasibətilə Azərbaycan qadınlarına ünvanladığı təbrik dövlətimizin başçısının qadınlara qarşı göstərdiyi diqqətin təcəssümüdür. Dövlət başçısı qadınlara təbrikində demişdir: ***“Azərbaycan qadınının cəmiyyətimizdə qazandığı yüksək mövqe və elmdə, təhsildə, mədəniyyətdə fəth etdiyi zirvələr bizim tarixi nailiyyətimiz, əbədi qürur mənbəyimizdir”.***

Dövlət qadın siyasəti Naxçıvan Muxtar Respublikasında da uğurla həyata keçirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2007-ci il 28 sentyabr tarixli Fərmanı ilə Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin yaradılması muxtar respublikada qadınlara verilən hərtərəfli dəstəyin, onların hüquqlarının müdafiə edilməsi istiqamətində həyata keçirilən tədbirlərin mühüm göstəricisidir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***“Azərbaycan qadınının ictimai həyatımızdakı dünənki, bugünkü mövqeyi dilimizə, vətənimizə, torpağımıza, dövlətimizə, milli dəyərlərimizə və Azərbaycançılıq məfkurəsinə sədaqət nümunəsi olmuş və gələcəkdə də olacaqdır!”***

Muxtar respublikada qadınların cəmiyyətdəki roluna və yerinə diqqətlə yanaşılır, bunun üçün hər cür şərait yaradılır. Qadınların sağlamlığı, təhsili ilə bağlı ardıcıl tədbirlər həyata keçirilir. Naxçıvanlı qadınlar digər sahələrlə yanaşı, dövlət idarəçiliyində, ictimai-siyasi həyatda fəal iştirak edirlər. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatlarının 7-si, muxtar respublikada bələdiyyə üzvlərinin 276-sı qadındır. Hazırda muxtar respublikada 14 qadın bələdiyyə sədri, 70 qadın təhsil, 28 qadın mədəniyyət müəssisələrinin rəhbəri vəzifəsində çalışır, 2 qadın elmlər doktoru, 88 qadın fəlsəfə doktorudur. Ümumilikdə, təhsil, mədəniyyət və səhiyyə sahəsində 17 mindən artıq, dövlət qulluğunda 513 qadın işləyir, 7590 qadın idmanın müxtəlif növləri ilə məşğul olur. Yeni Azərbaycan Partiyasının muxtar respublika təşkilatında 23 min 175 qadın təmsil olunur.

Muxtar respublikada müxtəlif fəaliyyət sahələri ilə məşğul olan qadınlar kimi, sahibkarlıq sahəsində fəaliyyət göstərən qadınlara da dəstək göstərilir. Ölkəmizdə qəbul edilmiş dövlət proqramlarının icrası, sahibkarlığa dövlət dəstəyi mexanizmlərinin genişləndirilməsi, maarifləndirmə, sahibkarların işgüzar əlaqələrinin inkişafı üçün kompleks tədbirlər əlverişli biznes mühitinin inkişafına şərait yaradıb. Hazırda muxtar respublikada 4309 qadın sahibkarlıq fəaliyyəti ilə məşğul olur.

Muxtar respublikada qadınların ictimai fəallığını yüksəltmək, onların öz hüquqları barədə məlumatlandırmaq məqsədilə müntəzəm olaraq maarifləndirici tədbirlər keçirilir. Ahıl, tənha, xüsusi qayğıya ehtiyacı olan qadınların həyat şəraitləri yaxşılaşdırılır, onların məişət və sosial problemləri həll olunur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı”na uyğun olaraq sağlamlıq imkanları məhdud qadınlar, eləcə də aztəminatlı ailənin üzvü olan qadınlar peşə kurslarına cəlb olunur, məşğulluq problemləri aradan qaldırılır.

Sağlam qadın, sağlam ailə və sağlam cəmiyyətin olması bu gün dövlətin əsas prioritetlərindəndir. Bunun üçün isə xalqımızın ailə dəyərlərinin yaşadılması, ailə üzvlərinin reproduktiv sağlamlığının qorunması vacibdir. Ona görə də hər il olduğu kimi, bu il də muxtar respublikanın kənd mərkəzlərində müvafiq mövzularda qadınlar arasında maarifləndirici tədbirlər keçirilmiş, broşürlər paylanılmışdır. Qadınlarımız isə xalqımızın ailə dəyərlərinə söykənərək analıq vəzifəsini ve borcunu da şərəflə yerinə yetirir, xalqımızın gələcəyi üçün ailə dəyərlərimizin qoruyucuları, adət-ənənələrimizin yaşadıcıları olan, nəsillər arasında varisliyi ləyaqətlə davam etdirən övladlar tərbiyə edirlər.

Muxtar respublikada qadınların uğurları təhsil sahəsindən də yan keçməmişdir. Yaradılan şəraitdən istifadə edərək yüksək səviyyəli, fəal mövqeli, xalqına, dövlətinə sadiq, müasir dünyada gedən proseslərdən baş çıxarmağı bacaran gənc nəsil yetişir və onlar arasında hər sahədə olduğu kimi, qızlarımızın da rolu diqqətəlayiqdir. Bunun bariz nümunəsi olaraq qeyd etmək olar ki, ali təhsil müəssisələrinə qəbul zamanı 500-700 intervalında bal toplayan abituriyentlər arasında qızlar üstünlük təşkil etmişdir.

Naxçıvan Muxtar Respublikasında həyata keçirilən dövlət qadın siyasəti qadınlarımızı cəmiyyətin fəal üzvünə çevirir, onların ictimai həyatda da iştirakını təmin edir. Milli və xalq tətbiqi sənəti növləri üzrə qadınlar arasında özünüməşğulluğun inkişaf etdirilməsi, onların rifah hallarının yüksəldilməsi üçün hər il istedadlı qadınların əl işlərindən ibarət yaradıcılıq müsabiqələri, sərgi-satışlar təşkil olunur, mədəni-kütləvi tədbirlərdə onların sənət əsərləri nümayiş etdirilir. 2017-ci ildə də bu sahədə görülən işlər ardıcıl olaraq davam etdirilmiş, muxtar respublikanın rayonlarında və Naxçıvan şəhərində istedadlı qadınların, o cümlədən sağlamlıq imkanları məhdud, aztəminatlı ailənin üzvü olan qadınların əl işlərinin sərgi-satışı təşkil olunmuş, sərgi-satışlarda 298 istedadlı qadının 1403 əl işi satılmışdır.

Müstəqillik və dövlətçilik ideyaları ətrafında sıx birləşən Naxçıvan qadınları onlar üçün yaradılan şəraitdən səmərəli istifadə edir, dövlət quruculuğunda, cəmiyyətin ictimai-siyasi həyatında fəal iştirak edərək muxtar respublikamızın sosial-iqtisadi, elmi-intellektual potensialının artırılmasına, mədəniyyətimizin inkişafına da öz töhfələrini verirlər.

*Heç şübhəsiz ki, muxtar respublika qadınlarının bütün uğurlarının təməlində dövlətimizin böyük dəstəyi və davamlı qayğısı dayanır. Muxtar respublikada qadınların həm ailədə, həm işdə, həm də cəmiyyətdəki layiqli mövqeyi xalqımızın uğurlu, xoşbəxt sabahına, firavanlığına ən ciddi təminatlardan biridir. Qadınlarımız bundan sonra da öz üzərinə düşən vəzifələri layiqincə yerinə yetirəcəklər.*

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

## Kim Çanq-gyu: “Naxçıvanın çox gözəl və ecazkar təbiəti, tarixi abidələri, zəngin mətbəxi və geniş turizm potensialı var”





*Koreya Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Kim Çanq-gyu 2018-ci il martın 6-7-də Naxçıvan Muxtar Respublikasında rəsmi səfərdə olub. Səfər çərçivəsində qonaq muxtar respublikanın istehsal, mədəniyyət müəssisələrində olub, tarixi abidələri ziyarət edib.*

Martın 6-da koreyalı diplomat əvvəlcə ulu öndər Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsinin önünə gül dəstəsi qoyub və Heydər Əliyev Muzeyini ziyarət edib.

Naxçıvan Biznes Mərkəzinə gələn qonağa muxtar respublikanın iqtisadi sahədə əldə etdiyi nailiyyətlər barədə məlumat verilib. Bildirilib ki, burada 94 müəssisənin 192 növdə və 1258 çeşiddə məhsulu, 37 ailə təsərrüfatında istehsal olunan 17 növdə 112 çeşiddə məhsul, 30 sənətkar tərəfindən hazırlanan 254 əl işi, rəsm əsərləri, xalçalar və Naxçıvan Muxtar Respublikasının istehsal müəssisələrinin xəritəsi nümayiş olunur.

Ordubad Rayon Tarix-Diyarşünaslıq Muzeyinin yerləşdiyi “Qeysəriyyə” tarixi binasına gələn qonağa buradakı eksponatlar barədə məlumat verilib. Qeyd olunub ki, muzey XII əsr abidəsi olan “Qeysəriyyə” binasında yerləşir. Keçmişdə şahlara məxsus daş-qaş satılması məqsədilə tikilmiş örtülü Şərq bazarına “Qeysəriyyə” deyilirdi. “Qeysəriyyə” dünyadakı nadir abidələrdən biridir. Belə tikililərə dünyanın 3 yerində – Səmərqənd, Təbriz və Ordubad şəhərlərində rast gəlinir.

Martın 7-də Koreyanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Kim Çanq-gyu “Əshabi-Kəhf Ziyarətgahı” Dini-Mədəni Abidə Kompleksi ilə tanış olub. Tanışlıq zamanı səfirə Əshabi-Kəhfin sirli tarixi barədə ətraflı məlumat verilib.

Ağbulaq İstirahət Mərkəzində isə bildirilib ki, ölkəmizdə kənd turizminin tətbiqi sahəsində həyata keçirilən ilkin tədbirlərin nəticəsi kimi diqqəti cəlb edən bu istirahət mərkəzi 2013-cü ildə istifadəyə verilib.

Batabat iqlim-kurort zonasında qonağa məlumat verilib ki, dəniz səviyyəsindən 2450 metr yüksəklikdə olan Batabat yaylağı ərazisindəki 3139 hektar sahəni əhatə edən Şahbuz Dövlət Təbiət Qoruğunda hazırda 32 növ vəhşi heyvan, 127 növ quş, 1580 növ bitki qorunur.

Səfir Batabat yaylağındakı göllər ilə yaxından maraqlanıb. Diqqətə çatdırılıb ki, məşhur Üzən ada, Zorbulaq da burada yerləşir. Üzən ada sfaqnum mamırlarından və onun üzərində bitən örtüklərdən formalaşıb. Küləyin istiqamətindən asılı olaraq ada öz yerini dəyişir.

Martın 7-də Koreyanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Kim Çanq-gyunun Naxçıvan Muxtar Respublikasına rəsmi səfəri başa çatıb.

Kim Çanq-gyu muxtar respublikaya səfəri ilə bağlı təəssüratlarını bizimlə bölüşdü. Əvvəlcə səfər barədə danışan qonaq qeyd etdi ki, əsas məqsəd muxtar respublika ilə yaxından tanış olmaq, əməkdaşlıq əlaqələrinin inkişaf istiqamətlərini müzakirə etməkdir. Naxçıvanda bir sıra yüksək səviyyəli görüşlər keçirdiyini qeyd edən diplomat göstərilən qonaqpərvərliyə görə minnətdarlığını bildirib.

Muxtar respublikanın tarixi və mədəni abidələri ilə yaxından tanış olduğunu bildirən Kim Çanq-gyu deyib: “Ordubad Rayon Tarix-Diyarşünaslıq Muzeyi, “Əshabi-Kəhf Ziyarətgahı” Dini-Mədəni Abidə Kompleksi ilə tanışlıq zamanı Azərbaycan xalqının çox qədim tarixə malik olduğuna şahidlik etdim. Bu məqamda onu da vurğulamaq istəyirəm ki, Naxçıvanın çox gözəl və ecazkar təbiəti, tarixi abidələri, zəngin mətbəxi və geniş turizm potensialı var. Buna görə də mən bu qədim diyarın turizm imkanlarını koreyalılara tanıtmaq üçün əlimdən gələni əsirgəməyəcəyəm”.

Blokada şəraitində olmasına baxmayaraq, Naxçıvan Muxtar Respublikasının çox böyük inkişaf yolu keçdiyini vurğulayan Koreyanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri bildirdi ki, Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Koreya Respublikası arasında iqtisadi, təhsil, mədəniyyət və turizm sahəsində əlaqələrin inkişafı üçün geniş imkanlar mövcuddur.

**Tural AĞAYEV**

## Naxçıvandakı ilk qadın asayiş keşikçilərinin izi ilə...

***Bu gün ölkəmizdə, eləcə də muxtar respublikamızda qadın polislər, hərbçilər, hakimlər, vəkillər, sədrlərin sayı kifayət qədərdir. Elə polislərdən söz düşmüşkən, bu yazımızın əsas mövzusu da muxtar respublikamızda ictimai asayişin qorunmasında özünəməxsus zərif cinsin nümayəndələrindən biri haqqında olacaq. Mövzunu hazırlayarkən əldə etdiyimiz məlumatlardan aydın oldu ki, muxtar respublikamızda bu çətin, məsuliyyətli, eyni zamanda şərəfli işi özünə həyat amalı seçən qadınlarımız onilliklər bundan əvvəl də olub.***



Arxiv sənədlərində rastlaşdığımız mənbələrdən Naxçıvanda bir neçə qadının ilk dəfə polis işçisi kimi fəaliyyət göstərdiyini öyrəndik. Mənbələrdə İradə Cəfərova, Gülbahar Məmmədova, Elmira Əhmədova, Validə Məmmədovanın adlarına rast gəlsək də, onlardan yalnız biri – Elmira Əhmədova ilə həmsöhbət ola bildik.

Polis peşəsini dünyada ən gözəl və müqəddəs peşə sayan Elmira Əhmədova ömrünün əhəmiyyətli bir dövrünü əhatə edən 20 illik fəaliyyəti haqqında qürurla danışdı. Əslən Ucar rayonundan olan Elmira Əhmədova orta məktəbi də elə həmin rayonda bitirib. Hələ uşaq yaşlarından polis sənətini özünə peşə seçən xanım bu arzusuna 1987-ci ildə Rusiya Federasiyasının Rostov şəhərindəki keçmiş SSRİ milis məktəbinə qəbul olunmaqla çatıb. Məktəbi fərqlənmə ilə bitirən Elmira Əhmədova təyinatla Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinə göndərilib. Maraqlıdır, görəsən, Elmira xanım necə olub, öz fəaliyyətini muxtar respublikamızda davam etdirib?

Elmira Əhmədova ilə söhbət zamanı öyrəndik ki, o, Rostovdakı milis məktəbində oxuyarkən Naxçıvan şəhərindən olan Siyavuş Cəfərov da onunla birlikdə təhsil alırmış. Bir-birinə hörmət və sevgiylə yanaşan iki gənc məktəbi bitirdikdən sonra həyat yollarını birləşdirmək qərarına gəlir və bu gün də xoşbəxt həyat sürürlər. Ailə həyatı qurduqdan sonra Elmira xanım və onun həyat yoldaşı Siyavuş müəllim fəaliyyətlərinə Naxçıvan Muxtar Respublikasında davam edirlər. Elmira Əhmədova 28 oktyabr 1990-cı ildə Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin əmri ilə Babək Rayon Polis Şöbəsində azyaşlılar üzrə müfəttiş vəzifəsinə təyin olunur. 1993-cü ildən təqaüdə çıxanadək, yəni 2007-ci ilədək Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Əməliyyat Statistik Bölməsində Baş müfəttiş vəzifəsində fəaliyyət göstərib. Xidməti dövründə əməyi bir çox mükafatlarla qiymətləndirilən Elmira Əhmədova polis polkovnik-leytenantı rütbəsinədək yüksəlib.

Müsahibimiz söhbət zamanı keçmiş milislə bugünkü polisin fərqini belə izah etdi: "Sovet hakimiyyəti dövründə Azərbaycanda milis işçilərinin maddi-texniki təminatı çox aşağı səviyyədə idi. O dövrdə milis işçiləri istər xüsusi avtomobil vasitələri, istərsə də texniki ləvazimatlarla tam təmin oluna bilmirdilər. Həmçinin o zamanlar professional milislər də az idi. Həmin dövrdə onların peşəkarlıq səviyyəsinin aşağı olması və bəzi hallarda yüksək ixtisasa yiyələnə bilməmələri məhz ölkəmizdə bu sahədə yüksəkixtisaslı kadrlar hazırlayacaq akademik təhsil müəssisəsinin olmamasından irəli gəlirdi ki, bunu da yaratmaq o zamanlar çox çətin idi. Yalnız çox az hallarda bu sahədə ali təhsil almaq üçün keçmiş SSRİ-nin bir sıra müvafiq təhsil müəssisələrinə məhdud sayda göndərilənlər olurdu. Çoxlarının ixtisasının isə milis peşəsilə heç bir əlaqəsi yox idi. Ancaq müstəqilliyimizin bərpasından sonra ümummilli liderimiz Heydər Əliyevin apardığı məqsədyönlü siyasətin nəticəsində ölkəmizdə Polis Akademiyası fəaliyyətə başladı və hazırda burada ixtisaslı kadrlar yetişdirilir. Həmçinin Azərbaycan polisi üçün bu gün yaradılmış müasir iş şəraiti inkişaf etmiş ölkələrlə müqayisə oluna bilər. Bu gün xüsusilə qadın polislərin fəaliyyəti üçün geniş imkanlar açılıb. Lakin əvvəllər qadınların polis işçisi kimi fəaliyyət göstərməsi elə də asan məsələ deyildi. Bəzən düşünürəm ki, bəlkə də, yoldaşım mənə dəstək olmasaydı, mən heç vaxt öz peşəmə davam edə bilməzdim. Ancaq bu gün nəinki qadın polislərin, bütün işlərdə qadınların ən böyük dəstəkçisi dövlətdir. Onlar hər cür diqqət və qayğı ilə əhatə olunurlar. Əməkləri daim mükafatlandırılır və inanıram ki, bu onları daha əzmlə çalışmağa ruhlandırır. Azərbaycan qadınının potensialı böyükdür. Bu dövlətdə onların ictimai-siyasi mövqeyi üçün kifayət qədər imkanlar var".

Üç övladı olan Elmira xanım övladlarının bu peşəni davam etdirmələrini çox istəsə də, təəssüf ki, buna nail ola bilməyib. Bir qız, iki oğlan anası olan xanımın qızı Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsini, bir oğlu isə Bakı Dövlət Universitetinin Hüquq fakültəsini bitirib. Kiçik oğlu isə hələ 11-ci sinifdə təhsil alır. Hazırda Bakı şəhərində yaşayan Elmira xanım Naxçıvanla bağlı təəssüratlarını da bizimlə paylaşır: "Naxçıvan dedikdə qəlbimdə kövrək hisslər təlatümə gəlir. O şəhər mənə çox doğma və əzizdir. Çünki ömrümün böyük bir hissəsini orada yaşamışam. Bəzən çox darıxıram, övladım burada təhsil almağa qərar verdikdən sonra onun arzularına sərhəd qoya bilmədik və ailəmlə birlikdə Bakıda yaşamağa qərar verdik. Ancaq hər yay fəslində istirahət etmək üçün Naxçıvana gəlirik. Və hər dəfə gəldikdə yeni mənzərələrlə qarşılaşırıq. Bu gün muxtar respublikamız inkişafının yeni mərhələsini yaşayır. Gözəl yolları, gözoxşayan parkları, bir-birindən yaraşıqlı binaları onun hüsnünə xüsusi gözəllik verir. Ancaq ən əsası sağlam cəmiyyətin, asayişin bərqərar olmasıdır. Eşitdiklərim, Naxçıvanda olarkən gördüklərim deməyə əsas verir ki, muxtar respublikada cinayət hadisələri yox dərəcəsindədir. Sağlam mənəviyyatlı gənc nəslin formalaşması, onların zərərli vərdişlərdən uzaqlaşdırılması, əhalinin məşğulluğunun təmin olunması istiqamətində bir sıra əhəmiyyətli işlər görülüb. Həqiqətən, qürur hissi keçirir, bu şəhərin sakini olmağınla fəxr edirsən".

...Bu yazımızda Azərbaycan polisinin tarixində Elmira Əhmədova kimi əzmkar bir qadının keçdiyi şərəfli yola nəzər saldıq. Bu gün insanların rahat, təhlükəsiz yaşaması, hüquqlarının qorunması yurdumuzun bacarıqlı övladlarının səylərinin nəticəsidir. Yurduna-yuvasına, vətəninə, torpağına sıx tellərlə bağlı olan igid oğul və qızlarımız hər zaman olub, bu gün də var və daim olacaq. Seçdiyi peşəni özünə şərəf yolu bilən hər bir şəxs, doğma torpağına, xalqına, millətinə sədaqətlə xidmət edib və inanırıq ki, hər zaman edəcək. Andına sadiq olan polislərimiz əminik ki, bundan sonra da qarşıya qoyulan tapşırıqları əzmlə yerinə yetirəcək, göstərilən etimadı xalqına, Vətəninə sədaqətli xidməti ilə doğruldacaq, insan və vətəndaş hüquq və azadlıqlarının nümunəvi təmin olunması, ictimai qaydanın və təhlükəsizliyin etibarlı qorunması kimi çətin, məsuliyyətli vəzifələrin öhdəsindən hər zaman olduğu kimi, bundan sonra da layiqincə gələcəklər.

**Gülcamal TAHİROVA**

## Sədərək rayonundakı xalça sexi yenidən fəaliyyətə başlayıb

***Muxtar respublikanın kompleks inkişafı sərhəd yaşayış məntəqəsi olan Sədərək rayonunu da əhatə edib. Rayonda geniş quruculuq işləri aparılıb, müasir infrastruktur yaradılıb, sakinlərin rahat yaşayışı təmin edilib. Həyata keçirilən tədbirlər Sədərək rayonunda sahibkarlıqla məşğul olanlar üçün də geniş imkanlar açıb.***



Səmərəli fəaliyyəti ilə seçilən belə sahibkarlıq müəssisələrindən biri – rayondakı xalça sexi əsaslı təmir olunduqdan sonra yenidən fəaliyyətə başlayıb. Bu münasibətlə keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri Famil Seyidov və Sədərək Rayon İcra Hakimiyyətinin başçısı Həbib İbrahimov çıxış ediblər.

Çıxışlarda qeyd olunub ki, sahibkarlığın hərtərəfli dövlət qayğısı nəticəsində inkişaf etməsi daxili bazara çıxarılan məhsulların təhlükəsizliyinə tam əminlik yaradır. Naxçıvanda sahibkarlıqla məşğul olan təsərrüfat subyektlərinə banklar və kredit təşkilatları tərəfindən lazımi maliyyə yardımlarının verilməsi, hərtərəfli dəstək göstərilməsi onların qarşısında geniş perspektivlər açıb. Muxtar respublikamızda ümumi daxili məhsulun həcmində özəl bölmənin payının getdikcə artması da bu sahənin inkişafına göstərilən dövlət qayğısının təzahürü kimi dəyərləndirilməlidir.

Sonra xalça sexinə baxış olub. Bildirilib ki, daxili bazarla yanaşı, bu müəssisədə toxunan xalçalar xaricə də ixrac olunur. 10 nəfər qadının daimi işlə təmin olunduğu xalça sexində xalçatoxuma zalı, mətbəx və digər inzibati otaqlar mövcuddur. Sexin həyətyanı sahəsində həmişəyaşıl ağaclar, gül kolları və meyvə ağacları əkilib.

Burada çalışan xalça ustası Mahirə Vəliyeva ilə həmsöhbət olduq. O bildirdi ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 7 mart tarixli Sərəncamı ilə "Rəşadətli əməyə görə" nişanı ilə təltif edilib. Əməyinin yüksək qiymətləndirilməsinə görə minnətdarlığını bildirən xalçaçı qeyd etdi ki, müəssisədə 2017-ci ildən etibarən Naxçıvan xalçaçılıq məktəbinə xas olan xalçalar toxunur. Belə xalçalar tarixən Azərbaycan xalça sənətini öz ənənəvi naxışları və elementləri, özünəməxsus rəng çalarları ilə zənginləşdirib. Həmçinin keyfiyyət amili də Naxçıvan xalçalarını fərqləndirən cəhətlərdəndir. Çalışacağıq ki, yaradılmış bu şəraitdən istifadə edərək Naxçıvanımızın xalçaçılıq ənənələrini bundan sonra da yaşadaq.

Qeyd edək ki, xalça sexinin yenidən fəaliyyətə başlaması Naxçıvanda qədim və zəngin ənənələrə malik bu el sənətinin yeni inkişaf mərhələsinə qədəm qoymasına imkan verəcək.

**Sərxan İSMAYILOV**

## Beynəlxalq Qadınlar Günü qeyd olunub

AMEA Naxçıvan Bölməsində 8 Mart Beynəlxalq Qadınlar Günü münasibətilə keçirilən tədbiri bölmənin sədri, akademik İsmayıl Hacıyev açaraq Azərbaycan qadınlarının tarixi xidmətlərindən, bu gün qadınların cəmiyyətdəki rolundan ətraflı bəhs edib. Bildirib ki, Azərbaycan müstəqillik əldə etdikdən sonra qadınlarımız ölkənin ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatının fəal iştirakçısına çevrilib.

Akademik rəhbərlik etdiyi elmi müəssisədə çalışan qadın əməkdaşları və onların timsalında bütün Azərbaycan xanımlarını Beynəlxalq Qadınlar Günü münasibətilə təbrik edib, onlara cansağlığı, firavan həyat, fəaliyyətlərində uğurlar arzulayıb.

Sonra bölmənin Elektron kitabxanasının direktoru Sahab Əliyeva dövlət qadın siyasətinin Naxçıvan Muxtar Respublikasında uğurla həyata keçirildiyini, onların fəaliyyəti üçün hər cür şərait yaradıldığını bildirib.

Diqqətə çatdırılıb ki, 2018-ci ilin statistikasına əsasən AMEA Naxçıvan Bölməsində çalışan 254 əməkdaşın 120-ni, 89 elmi işçinin 31-ni, 55 fəlsəfə doktorunun isə 18-ni qadınlar təşkil edir.

Tədbirin sonunda bölmənin bütün qadın əməkdaşlarına hədiyyələr təqdim edilib.

***AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi***

## Yeniyetmə və gənclər üçün açıq dərs təşkil edilib



***Heydər Əliyev irsinin yeniyetmə və gənclərə təbliğ olunması məqsədilə "Naxçıvan" Universitetinin Heydər Əliyev Dövlətçilik Mərkəzində Heydər Əliyev Gənclər Məktəbinin dinləyicilərinə "Heydər Əliyev və gənclik" mövzusunda açıq dərs keçilib.***

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin şöbə müdiri Tahir Məmmədli çıxış edərək tədbirin mahiyyəti haqqında iştirakçılara məlumat verib. "Naxçıvan" Universitetinin müəllimi, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatının sədr müavini Könül Babayeva çıxış edərək bildirib ki, ümummilli liderimizin ölkəmizə rəhbərlik etdiyi dövrlərdə dövlət gənclər siyasəti onun həyata keçirdiyi siyasi kursun əsas prioritet istiqamətlərindən birini təşkil edib. Təsadüfi deyil ki, ulu öndər daim "Gənclər həyatımızın bəzəyidir", "Gənclər bizim gələcəyimizdir" ifadələrini xüsusi vurğu ilə səsləndirərək, gənc nəsli ictimai-siyasi həyatda daha fəal iştirak etməyə həvəsləndirir, kadr siyasətinin həyata keçirilməsində gənclərə xüsusi önəm verirdi. Azərbaycanda Gənclər Gününün qeyd edilməsi də ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndərimizin bu sahədə həyata keçirdiyi siyasət gənc nəslin mənəvi-əxlaqi tərbiyəsinin gücləndirilməsinə, sosial rifahının yaxşılaşdırılmasına və zəngin elmi potensialın yaradılmasına xidmət edir. Təsadüfi deyil ki, görkəmli dövlət xadimi Heydər Əliyev hər zaman gənclərə qayğı ilə yanaşır, onların problemlərini həll etməyə çalışırdı. Gənclərin ictimai-siyasi həyatda fəallığını artırmaq üçün həyata keçirilən dövlət proqramlarının tətbiqi, idarəetmə orqanlarında gənc mütəxəssislərə üstünlük verilməsi ümummilli lider tərəfindən müəyyənləşdirilmiş gənclər siyasətinin uğurlu nəticəsidir. Bu gün Azərbaycan gəncliyi ictimai həyatın bütün sahələrində aktiv fəaliyyəti ilə seçilir, siyasi, iqtisadi, humanitar, sosial tədbirlərin həyata keçirilməsində fəal iştirak edir. Gənclərimizin qarşısında idman, elm, mədəniyyət, incəsənət və digər sahələrdə qazanılan nailiyyətlərlə yanaşı, həm də dövlətçilik ənənələrini daim uca tutmaq, ulu öndər Heydər Əliyevin siyasi xəttinə sədaqət ruhunda böyümək kimi müqəddəs vəzifələr durur.

Açıq dərs Gənclər və İdman Nazirliyi, Yeni Azərbaycan Partiyası Heydər Əliyev adına Gənclər Birliyi tərəfindən təşkil edilib.

**Ceyhun MƏMMƏDOV**

## Növbəti kitab təqdimatı keçirilib




Naxçıvan Dövlət Universitetinin Elmi kitabxanasında universitetin rektoru, AMEA-nın müxbir üzvü, biologiya elmləri doktoru, professor Saleh Məhərrəmov və biologiya üzrə fəlsəfə doktoru, dosent İsmayıl Sadiqovun birgə ərsəyə gətirdikləri "Biocoğrafiya" kitabının təqdimetmə mərasimi keçirilib. Tədbiri giriş sözü ilə açan universitetin elmi işlər üzrə prorektoru, fizika-riyaziyyat üzrə fəlsəfə doktoru, dosent Mübariz Nuriyev kitabı coğrafiya və ekologiya ixtisaslarında tədris edilən biocoğrafiya elmi ilə bağlı fundamental tədris vəsaiti kimi dəyərləndirib. Vurğulanıb ki, dərslik Boloniya təhsil sistemi əsasında tərtib edilib.

Zoologiya kafedrasının müdiri, biologiya üzrə fəlsəfə doktoru, dosent Həbib Hüseynov qeyd edib ki, kitab giriş, 13 fəsil və ədəbiyyat siyahısından ibarətdir. Daha çox xarici elmi mənbələrdən istifadə olunan dərslik biologiya və coğrafiya sahələrində əldə edilmiş son nailiyyətlərə əsasən tərtib edilib. Kitabda biocoğrafiyanın inkişaf tarixi, biosferin xüsusiyyətləri, maddələr dövranı, bitki və heyvanat aləminin bioloji-ekoloji xüsusiyyətləri, biosenoz, biogeosenoz və ekosistem, müxtəlif zonaların biomları, biocoğrafiya və bioloji müxtəlifliyin qorunma problemləri və digər məsələlər geniş izah edilib.

Coğrafiya kafedrasının müdiri, coğrafiya üzrə fəlsəfə doktoru, dosent Əli Həsənov biocoğrafiya fənni və onun inkişaf tarixi haqqında çıxışında vurğulayıb ki, universitetin coğrafiya və ekologiya ixtisası tələbələri üçün nəzərdə tutulan kitabdan müvafiq ixtisaslar üzrə təhsil alan tələbələr, həmçinin bu sahədə elmi iş aparan tədqiqatçılar və müəllimlər də faydalana bilərlər.

Tədbirdə Coğrafiya müəllimliyi ixtisası üzrə II kurs tələbəsi Kazım Kazımov çıxış edib, kitab haqqında müzakirələr dinlənilib.

**Səadət ƏLİYEVA**

## Zərif çiyinlərin “ağır yükü”

***Ulu öndərimizin əsasını qoyduğu dövlət qadın siyasəti istiqamətində ardıcıl tədbirlər Azərbaycan və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında uğurla həyata keçirilir. Bu gün dövlətimizin qadınlara qayğısını həyatımızın hər sahəsində görmək olar. Bunun nəticəsidir ki, qadınlarımız dövlət quruculuğunda, ictimai həyatda fəal iştirak edir, muxtar respublikamızın sosial-mədəni inkişafına öz töhfələrini verirlər. Bugünkü müsahiblərimiz isə zərif çiyinlərində “ağır yük” daşıyan qadın taksi sürücüləridir.***



İlk müsahibim Süsən Sadiqova Şahbuz rayonunun Mahmudoba kəndində dünyaya gəlib. Bir övladı, üç nəvəsi var. Ali təhsillidir. Süsən xanım əvvəllər müxtəlif yerlərdə işləyib, Şahbuz Şəhər Texniki Peşə Məktəbində sürücülük dərsi deyib, kəndlərindəki ictimai təsərrüfatda mühəndis-texnoloq vəzifəsində çalışıb, pambıqyığan maşın belə, idarə edib.

Müsahibim uzun illər doğma vətəni Naxçıvandan ayrı yaşayıb. Artıq beş aydır ki, el-obasına qayıdan Süsən xanımla söhbətimizdə bildirdi ki, qadın zərif məxluqdur. Amma onun zəif olduğunu düşünənlər yanılırlar. Çünki qadınlar həyatda iradəli, zəhmətkeş insan, qayğıkeş ana olduqları kimi, cəmiyyətdə də öz sözlərini deyə bilirlər. Məqsədinə çatmaq üçün qadın və ya kişi olmaq əsas şərt deyil. Şərt insanın məqsədinin və əxlaqının, dürüstlüyünün olmasıdır. Taksi sürücüsü işləmək çətin deyil. Artıq beş aydır ki, çalışdığım bu iş məni yormur. Xanımların taksi sürücüsü işləməyi çoxları tərəfindən maraqla qarşılanır. Bəziləri mənə: “Sənə halal olsun!” deyəndə qürur hissi duyuram. Muxtar respublikamızın hər yerini tanıyıram. Ona görə də müştəri hər hansı ünvana getməyi sifariş edəndə çətinlik çəkmirəm. Paytaxt Naxçıvanla bərabər muxtar respublikanın istənilən bölgəsinə də müştəri aparıram. Ümumiyyətlə, heç vaxt müştəri sarıdan korluq çəkməmişəm. Gündəlik qazancım da pis deyil. Müştərilərimin çoxu şəhərimizə qonaq gələn turistlərdir. Onlarla bərabər mən də bu qədim diyarın gəzməli-görməli yerləri ilə daha yaxından tanış oluram. Xarici ölkələrdə yaşadığım vaxtlarda həmin ölkələrin millətlərinin dillərini də öyrənmək imkanım olub. Öyrəndiklərim indi turist müştərilərimlə dialoq qurmağımı çox asanlaşdırır.

Yerli istehsal olan “NAZ-Lifan” markalı taksilərimiz ən son avadanlıqlarla təchiz edilib. Avtomobilin salonunda quraşdırılan GPS avadanlığı və izləmə kamerası müştərilərimizə mənzilbaşına rahat və təhlükəsiz çatmaq imkanı yaradır. Bir sözlə, dövlətimizin bizə yaratdığı imkanlardan çox razıyıq.

Süsən xanım bir məqamı da vurğulayır ki, sağ olsun yol polisləri, hamısı bizə hörmətlə yanaşırlar. Eləcə də Naxçıvan Muxtar Respublikası Nəqliyyat Nazirliyinin işçiləri hər hansı bir problemlə qarşılaşmağımıza imkan vermirlər. Amma bayaqdan sadaladığımız bu üstünlüklər, biz qadın sürücüləri də qanun pozuntusu müqabilində hansısa cəza növündən qorumur. Çünki qanun qarşısında hamı bərabərdir.

Digər müsahibim gəncdir. Öz işini ürəkdən sevən Nurtac Kazımovanın dediklərindən:



– 1987-ci ildə Babək rayonunda doğulmuşam, əvvəllər ticarət mərkəzlərindən birində kassir işləyirdim, lakin sürücülüyə olan marağım məni sükan arxasında oturmağa vadar etdi. Qərara aldım ki, sürücü kimi çalışım. Artıq bir aydır ki, bu işlə məşğul oluram.

Nurtac onu da bildirir ki, qazancı normaldır, dolanışıqlarına bəs edir. İki övladı var, onlar orta məktəbdə oxuyurlar.

Müsahibimin sözlərinə görə, hər kəs çörəyini zəhmətlə qazanmalıdır. Bunun üçün, sadəcə, azmlə çalışmaq, sahibi olduğun işə can yandırmaq lazımdır. Yaxşı şəraitlə təmin olunmaq üçün qarşılaşdığın çətinliklərə sinə gərməyi bacarmalısan.

Səhərə yaxın, gecə saat dörddə, beşdə hələ şəhər “oyanmamış” mən öz işimə başlayıram. Bəzən elə olub ki, muxtar respublikanın ən ucqar dağ kəndlərinə gecəyarısı müştəri aparmışam və dan yeri ağaranda geri qayıda bilmişəm. Qadın olmağıma baxmayaraq, kimliyindən asılı olmayaraq sərnişini istədiyi ünvana qorxmadan, çəkinmədən çatdırıram. Bütün bunların səbəbi isə muxtar respublikamızda yaradılmış sakitlik və əmin-amanlıqdır.

Yəqin ki, el arasında bu deyimi eşitmisiniz: “Aslanın erkəyi, dişisi olmaz”. Bu fikir bizim qəhrəmanlarımızla bağlı tam yerinə düşür. Və bir anlığa Azərbaycan qadınının tarixən keçdiyi yolu gözlərim önünə gətirməyə çalışıram. “Kitabi-Dədə Qorqud”, “Koroğlu” dastanlarından tanıdığım qadınlar, Tomris ana, Sara xatın, müasir dövrümüzdə böyük vəzifələrə irəli çəkilən, elmdə öz sözünü deyən, deputat kimi seçicilərinin problemlərinin həllinə çalışan qadınlarımız hər birimizin böyük hörmətlə xatırladığımız insanlardır. Haqqında bəhs etdiyimiz taksi sürücülərimiz də belə zəhmətkeş qadınlarımızdandır.

**✍ Ramiyyə ƏKBƏROVA**

### Naxçıvan Muxtar Respublikası üzrə 2018-ci ilin fevral ayında verilən təbii qazın miqdarı, təbii qaz satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/№ | Şəhər və rayonlar | Təbii qazın həcmi (kubmetr) | Təbii qazın dəyəri (manat) | Daxil olan vəsait (manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Şahbuz rayonu | 874383 | 91419 | 91895 | 100,5 |
| 2. | Ordubad rayonu | 1568853 | 158091 | 158875 | 100,5 |
| 3. | Kəngərli rayonu | 1049560 | 104976 | 105476 | 100,5 |
| 4. | Culfa rayonu | 1475449 | 147785 | 148032 | 100,2 |
| 5. | Şərur rayonu | 2356251 | 237314 | 237569 | 100,1 |
| 6. | Babək rayonu | 2622022 | 263621 | 263816 | 100,1 |
| 7. | Sədərək rayonu | 268589 | 26869 | 26873 | 100,0 |
| 8. | Naxçıvan şəhəri | 3506537 | 366748 | 366751 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 11672907 | 2018932 | 1826595 | 90,5 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **25394551** | **3415755** | **3225882** | **94,4** |

***Müxtəlif dövrlərdə qadınların ideal bədən quruluşu, onların idmana yönəldilməsi barədə təzadlı fikirlər səsləndirilib. Məsələn, XIX əsrdə kök və bir qədər güclü qadın bədən quruluşu ideal hesab edilirdisə, XXI əsrin əvvəlində bu, özünü arıq bədən quruluşu ilə əvəz etməyə başladı. Təbii ki, bu cür bədən quruluşu anadangəlmə olmur: bunun üçün uzun müddət və səylə çalışmaq lazımdır. Qidalanmaya nəzarət etmək, müntəzəm şəkildə idmanla məşğul olmaq vacib şərtdir. Qərb mədəniyyətində qadının idmana cəlbi bu cür təzahür olunur: “Hər şey qadının öz əlindədir”. Bəs idman qadına gözəllik, yoxsa kobudluq verir?***

*Sağlam həyat tərzi*

## Qadın idmanı: gözəlliklə kobudluğun harmoniyası

Müasir dövrümüzdə “qadın idmanı – gözəllik, yoxsa kobudluq?” sualı ortaya çıxıb. Qərbdə güc tələb edən qadın idmanı hələ ötən əsrin ortalarından tətbiq edilməyə başlayıb. Qadınların bir çoxu bədən quruluşunu müxtəlif idman növləri ilə “nizamlamağa” tənqidi yanaşırlar. Onlar üçün şeypinqlə, yaxud da aerobika ilə məşğul olmaq, qaçışa üstünlük vermək, ən cəsarətli idman hesab edilən bodibildinqlə məşğul olmaq orqanizmə zərərdir. Lakin həkimlər əzələləri möhkəmləndirmək üçün böyük çəki ilə işləmək lazım olduğunu vacib bilərək qeyd edirlər ki, həm kişilər, həm də qadınlar eyni məşğələni yerinə yetirə bilərlər. Onların orqanizmlərində gedən kimyəvi proseslər isə fərqlənir. Belə olan halda qadın əzələləri həcminə görə bəzən kişi əzələlərindən geri qalacaq, lakin eyni sağlamlıq mahiyyətini itirməyəcək. Ona görə həkimlər qadınların fitnes və ya ağır atletika ilə məşğul olmazdan öncə bunlara riayət etmələrini vacib bilirlər:

*- məşqə tələsmədən başlamaq, böyük yüklərdən (alətlərdən) istifadə etməmək;*

*- bədənin yüklərə necə reaksiya verdiyini hiss etmək;*

*- məşq edərkən nəyin necə edildiyini yadda saxlamaq;*

*- ağır məşqlərə girməmək;*

*- düzgün nəfəs almağı öyrənmək, əsas tapşırıqları mənimsəmək və onları düzgün yerinə yetirməyə çalışmaq;*

*- məşğələlərə trenajorlardan başlamaq, onların köməyi ilə əsas texnikanı mənimsəmək asan olacaq.*

Bu məsələdə əsas problem yüksək fiziki yükə və karbohidrogen-zülal tərkibli qidaların yüksək sərfinə əsaslanaraq əzələ kütləsinin nəzarətsiz qaydada artmasıdır. Bununla belə, söhbət bölgülü qidalanmadan gedir: məşqə qədər karbohidratlar, məşqdən sonra zülal. Güc tələb olunan məşqlərdə bu cür bölgüdən imtina etmək orqanizmin normal işinin pozulmasına səbəb ola bilər.

Digər tərəfdən görkəmini, bədən quruluşunu dəyişmək arzusunda olmayan qadınlara rast gəlmək çox çətindir. Əlbəttə ki, söhbət, ilk növbədə, artıq çəkidən azad olmaqdan gedir. Təəssüflər olsun ki, ehtiyatsızlığın əvəzini hərdən sağlamlıqla da ödəməli oluruq. Qadınlar bəzən artıq çəkidən azad olmaq üçün orqanizmə uyğun olmayan idman növlərinə üz tuturlar. Bu da qısa zaman kəsiyində öz fəsadlarını göstərir və qadında gözəllik yox, qeyri-normal bədən quruluşu formalaşdırır. Bu zaman ortaya belə bir sual çıxır: qadınlar daha çox həvəskar kimi hansı idmandan istifadə edə bilərlər? Gündəlik həyat tərzi və aparılan araşdırmalar göstərir ki, 22-35 yaşlı qadınlar həm bədən quruluşunu düzəltmək, həm də sağlam həyat tərzinə yiyələnmək üçün bədii gimnastika, üzgüçülük, yüngül atletika, tennis kimi idman növləri ilə məşğul olmalıdırlar. Adıçəkilən növlərin insan orqanizmində üstün cəhətləri isə aşağıdakılardır:



*- maksimal qısa müddətə artıq çəkidən azad olmaq;*

*- əzələ kütləsinin lokal yolla təkmilləşdirilməsilə uyğun bədən forması əldə etmək;*

*- orqanizmdə metabolizm prosesini sürətləndirmək;*

*- qadın bodibildinqinin fəsadlarından qorunmaq;*

*- ürək-damar fəaliyyətini tənzimləmək;*

*- əzələ kütləsini tez bir zamanda formaya salmaq.*

Hazırda dünyada bütün idman növləri sürətlə inkişaf edir. Əlbəttə, həm kişilər, həm də qadınlar hər hansı bir idman növü ilə məşğul olmaq üçün öz seçimlərində azaddırlar. Müasir zamanda öz sağlamlığına və bədən quruluşuna biganə qalmayan qadınlar bəzən bodibildinqə böyük maraq göstərirlər. Lakin bu heç də birmənalı qarşılanmır. Qadın öz incəliyini qorumalıdır. Çünki bodibildinq bədəni bərkidir və həddən artıq əzələli bədəni ona kobud görkəm verir. Kişilərlə müqayisədə qadınların bu növə maraq göstərməsi onların sağlamlığında fəsadlar törədə bilər. Çünki qadınlar üçün ciddi nəticələrə nail olmaq daha çətindir. Qadınların qanında testosteronun səviyyəsi kişilərlə müqayisədə 25 dəfə azdır və bu da əzələlərin müqayisə edilməməsi deməkdir.

Aparılan araşdırmalar göstərir ki, qadının məşq etmək üçün ən optimal vaxtı gündüz saat 3-dən 4-ə kimidir. Məşqin davametmə müddəti həftədə 2-3 dəfədən çox olmamaq şərti ilə 40-45 dəqiqə nəzərdə tutulur. Ağır güc sərf olunan məşqlərdən sonra bədənin bərpası üçün 1-2 gün vaxt lazımdır. Əksər mütəxəssislər güc sərfi ilə müşayiət olunan idman növlərini özgücülük, aerobika, şeyping və ya qaçışla uyğunlaşdırmağı məsləhət görürlər.

Göründüyü kimi, qadının etdiyi ağır məşqlər səhvi bağışlamır. Bu da qadında gözəllik yox, kobudluq yaradır ki, bundan da xilas olmaq mümkünsüzdür: bədən öz quruluşunu itirir, orqanizmin inkişafında axsamalar yaranır. Yəni ağır idman qadında “dəmir bədən” formalaşdırır. Öz zəngin mənəviyyatı ilə yanaşı, xarici görünüşü ilə digər qadınlardan hər zaman seçilən Azərbaycan qadınlarına kobudluq yox, elə bu incəlik, zəriflik yaraşır.

## Şərur rayonunda silsilə idman tədbirləri keçirilib

Şərur Rayon Gənclər və İdman İdarəsi, Təhsil Şöbəsi, Yeni Azərbaycan Partiyası Şərur Rayon Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyi və Atıcılıq Federasiyasının təşkilatçılığı ilə Beynəlxalq Qadınlar Gününə həsr olunan məktəbli qızlar arasında atıcılıq üzrə rayon birinciliyi keçirilib.



8 məktəbdən 28 şagirdin iştirak etdiyi yarışın yekun idman nəticələrinə əsasən Şərur rayon Arbatan kənd tam orta məktəbinin şagirdi Nurcan Məmmədova I, eyni məktəbin digər şagirdi Göyərçin Seyidova II, Şərur rayon Düdəngə kənd tam orta məktəbinin şagirdi Gülnur Məmmədzadə isə III yerə layiq görülüblər.

Eyni zamanda rayonda şahmat üzrə yeniyetmə qızlar və qadınlar arasında keçirilən rayon birinciliyinə də yekun vurulub. Birincilikdə 40 yeniyetmə qız və 10 qadın zəka sahibi mübarizə aparıb. Yarışın yekun nəticələrinə əsasən yeniyetmə qızlar arasında Sevgi Qurbanova, qadınlar arasında isə Məhəbbət Babayeva qalib adını qazanıblar.

Sonda hər iki yarışın qaliblərinə təşkilatçılar tərəfindən diplom və hədiyyələr təqdim olunub.

**✍ Ceyhun MƏMMƏDOV**

***İtmişdir***

Səfərli İlkin Hüseyn oğlunun adına 18 mart 2016-cı il tarixdə verilmiş SQ-0018075 seriya nömrəli gizirin hərbi vəsiqəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Gülcamal Tahirova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1490. Sifariş № 202